# AZƏRBAYCAN RESPUBLİKASININ
# SƏHİYYƏ NAZİRİ

## Ə M R

№ 86

Bakı şəhəri "01" sentyabr 2014-cü il

**"Ali və orta tibb təhsili müəssisələrində təhsilalanların köçürülməsi barədə"**

Ali və orta tibb təhsili müəssisələrində təhsilalanların ölkədəki ali və orta tibb təhsili müəssisələrinə köçürülməsi işinin müasir tələblərə uyğun həyata keçirilməsi məqsədilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin 8.13-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Ali və orta tibb təhsili müəssisələrində təhsilalanların köçürülməsi məsələlərinə baxılması və rəy verilməsi "Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üzrə Komissiya"ya həvalə edilsin.
2. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 28 avqust 2007-ci il tarixli 80 nömrəli əmri ilə yaradılmış "Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üzrə Komissiya"nın yeni tərkibi təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 14.09.2007-ci il tarixli 86 nömrəli, 29.08.2008-ci il tarixli 115 nömrəli əmrləri və 07.11.2012-ci il tarixli 109 nömrəli əmrinin 1 –ci bəndi ləğv edilsin.
4. Əmrin icrasına nəzarət nazir müavinlərinə həvalə edilsin.

Oqtay Şirəliyev

Azərbaycan Respublikası Səhiyyə
Nazirliyinin 01.09.2014 il tarixli
86 nömrəli əmri ilə təsdiq edilmişdir.

"Xarici ölkələrdə ali və orta ixtisas təhsili almış, diplomdan sonra ixtisaslaşma keçən tibb və əczaçılıq işçilərinin işə buraxılması üzrə Komissiya"nın TƏRKİBİ

| | |
|---|---|
| 1. Zəkiyyə Mustafayeva | Aparat rəhbəri, komissiyanın sədri |
| 2. Şəbruz Novruzova | Kadrlar, elm və təhsil şöbəsinin müdir müavini |
| 3. Elxan Əzizov | Hüquq və daxili nəzarət sektorunun müdiri vəzifəsini icra edən |
| 4. Sabir Əliyev | Azərbaycan Tibb Universitetinin Tədris İşləri üzrə prorektoru |
| 5. Dilarə Məmmədəliyeva | 2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru |
| 6. Nəcibə Hüseynova | Kadrlar, elm və təhsil şöbəsinin böyük məsləhətçisi (katib) |
| 7. Rauf Ağayev | Respublika Müalicə Diaqnostika Mərkəzinin baş həkimi |

8. Ixtisaslar üzrə yüksək ixtisaslı mütəxəssislər